UOT: 336 & 338.22.01

Aygül Aydın qızı SƏLİMOVA
Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı,
e-poçt: vipaygul76089@gmail.com
10.30546/4.71.73001.2024.06

AQROBİZNES SİSTEMİNDƏ MALİYYƏ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR VƏ ONUN İNKİŞAFININ TƏKAMÜLÜ

Xülasə

Tədqiqatın məqsədi - müasir iqtisadi şəraitdə aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşmasına təsir edən amillərin müəyyənləşdirilməsi və onun inkişafı xüsusiyyətlərinin qiymətləndirilməsidir.

Tədqiqatın metodologiyası - tədqiqat işində məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilib.

Tədqiqatın tətbiqi əhəmiyyəti - tədqiqatda əsaslı araşdırmalar aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşmasına təsir edən amillərin və onun inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsinə şərait yaratmaq imkanına malikdir.

Tədqiqatın nəticələri - aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşmasına təsir edən amillərin və onun inkişaf xüsusiyyətlərinin nəzəri baxımdan araşdırılması bir sıra nəticələrin və mülahizələrin əldə olunmasına imkan yaradır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - müzakirəyə səbəb olan elmi mülahizələr aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşması sisteminin əsasını təşkil edən və bir sıra prinsipləri müəyyən edən aparıcı tədqiqatçıların araşdırmalarının nəticələrində yer alan müəyyən fikirləri dəstəkləməyə imkan verir.

Açar sözlər: aqrobiznes sistemi, iqtisadi, maliyyə münasibətləri, subyekt, amil, inkişaf, resurs.

Giriş

Azərbaycan Respublikasının milli iqtisadiyyatının əsas sahələrindən biri aqrobiznes sistemidir. Mühüm iqtisadi, maliyyə və resurs potensialı cəmləşmiş aqrobiznes sistemində ölkə ictimaiyyətində həyati əhəmiyyətə malik olan məhsullar istehsal olunur. Resurs potensialına torpaq, maddi və əmək ehtiyatları aid edilir. Aqrobiznes sistemində iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin 35,8%-i (1,8 milyon nəfər), bütün əsas istehsal fondlarının 3,8%-i (10,1 milyard manat) və iqtisadiyyatın sahələri üzrə ümumi daxili məhsulun 4,8%-i (6,4 milyard manat) bu sferanın payına düşür [2, s. 55, 56, 58]. Aqrobiznes sisteminin uğurlu inkişafı ölkənin milli iqtisadiyyatının bütün sahələrinin səmərəli vəziyyətini qətiyyətlə müəyyənləşdirməyə imkan verir. Bu cür inkişaf göstəricisinə malik olduğu şəraitdə ölkə əhalisinin ərzaq məhsulları ilə özünü təmin etmək imkanının olması dövlətin ərzaq təhlükəsizliyinin səviyyəsi və cəmiyyətdəki sosial-iqtisadi vəziyyəti müəyyənləşdirir. Bunları nəzərə alaraq müasir iqtisadi şəraitdə aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşmasına təsir edən amillər müəyyənləşdirilməlidir və onun inkişafının xüsusiyyətləri qiymətləndirilməlidir. Ona görə də tədqiqatın mövzusu aktuallığı ilə fərqlənir.

Aqrobiznes sistemində maliyyə resurslarının formalaşmasına təsir edən amillərin müəyyənləşdirilməsi

Aqrobiznes sistemi ölkənin aqrar sənaye kompleksinin bütün sahələrini özündə cəmləşdirir. Bu sistemin qeyri-kafi inkişafı əhalinin ərzaq təminatı səviyyəsinin pisləşməsinə səbəb olur ki, bu da ölkəni xarici ölkələrdən müəyyən siyasi və ərzaq asılılığına düşürə bilər. Qeyd etmək lazımdır ki, inkişaf etmiş xarici ölkələrin əksəriyyəti rəsmi olaraq aqrobiznesin inkişafında böyük əhəmiyyəti olan aqrar siyasəti prioritet və strateji sahə hesab edirlər [13, 14, 15]. N.R.Kelçevskaya, İ.S.Pelımskaya, E.V.Andreyeva qeyd edirlər ki, "...aqrar sənaye kompleksinə dövlət dəstəyi sahəsində beynəlxalq təcrübəyə əsasən, dövlətin kənd təsərrüfatı istehsalında iştirakı və sənayenin inkişafı proqramının olması onun sabit uğurlu inkişafına kömək edir. Onlar aqrar sənaye

kompleksinin idarə edilməsinin ümumi xarici təcrübəsini qiymətləndirərək hesab edirlər ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətinin əsas potensialı aqrar müəssisələrin sayında, istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmində deyil, istehsal prosesinin təmin edilməsinin elmi və texniki səviyyəsində, idarəetmə sisteminin səmərəliliyini artıraraq məhdud istehsal ehtiyatlarından səmərəli istifadə etmək bacarığındadır” [11, s. 108]. Bu amillər, ölkəmizin aqrobiznes sistemində istehsal olunan məhsulların keyfiyyətinin artmasına kömək etməklə onların dünya bazarında kifayət qədər yüksək rəqabətqabiliyyətli olmasına şərait yaradır.

Aqrobiznes sistemində həyata keçirilən istehsal yalnız ona xas olan özünəməxsus xüsusiyyətlərə malikdir ki, bu da onu milli iqtisadiyyatın digər sahələrindən xeyli fərqləndirir. Bütün bu xüsusiyyətlər bazar prinsiplərindən istifadə olunduğu indiki şəraitdə daha aydın şəkildə özünü göstərməkdədir. Aqrobiznes sisteminin əsas spesifik xüsusiyyəti ondan ibarətdir ki, onun kənd təsərrüfatı sahəsindəki istehsal bioloji və təbii proseslərlə birbaşa əlaqəli olmaqla yanaşı insanların, torpağın, bitkilərin, heyvanların sahibkarlıq prosesinə cəlb edilməsindən və iqlim şəraitindən birbaşa asılı olan biznesin mürəkkəb formasıdır. Araşdırmalarımızın nəticələrinə əsasən aqrobiznes sistemində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarının formalaşmasına təsir edən amilləri (təbii, bioloji, istehsal, iqtisadi-maliyyə və sosial) qruplaşdırdıq.

Təbii-iqlim şəraiti canlı orqanizmlərin bioloji inkişaf dövrünə, bitki və heyvanların məhsuldarlığına, məhsulların maya dəyərinin və rentabelliyinin diferensiallaşdırılmasına, son nəticədə aqrobiznes sistemində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin rentabelliyinə və maliyyə resurslarının dövriyyəsinə həlledici təsir göstərir. Öz növbəsində aqrobiznes sistemində istehsalın mövsümiliyi və tsiklik xarakterə malik olması, xərclər və əldə olunan gəlirlər arasındakı vaxt boşluğuna görə ilin dövrləri üçün maddi-pul ehtiyatlarının təmərküzləşməsini tələb edir. Buna görə aqrobiznes sistemində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əksəriyyəti çoxsahəlidir və aqrar istehsalın çoxşaxəli ixtisaslaşması istehsal dövrü ərzində maliyyə mənbələrindən daha bərabər şəkildə istifadə olunmasına kömək edir.

İstehsal və iqtisadi (maliyyə) amillərə ilk növbədə, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına (ÜTT-yə) üzvolma ərəfəsində həlledici rol oynayan qiymətlər və dünya səviyyəsinə yönəlmiş ixracqabiliyyətli aqrobiznes sistemində istehsal olunan məhsullar daxildir. Tədqiqatın sonrakı mərhələsində bəhs etdiyimiz istehsal və iqtisadi (maliyyə) amilindən daha geniş şəkildə bəhs edəcəyik.

Yuxarıda deyilənlərdən əlavə qeyd etmək lazımdır ki, aqrobiznes sistemindəki mövcud vəziyyət sosial amillərin ayrıca nəzərdən keçirilməsini tələb edir. Müstəqilliyin ilk illərində ölkəmizin regionlarının inkişaf etməmiş infrastrukturu və aqrobiznes subyektlərində ixtisaslı kadr təminatına və resurs potensialından səmərəli istifadəyə xüsusi təsir göstərən mürəkkəb demoqrafik vəziyyət son illərdə uğurlu iqtisadi islahatlar nəticəsində dayanıqlı inkişaf etmişdir.

Maliyyə sisteminin tarixinin yaranması və maliyyə elminin inkişafının təkamülü

Son illərdə dövlətin iqtisadi fəaliyyətinə təsir göstərən və koronovirus pandemiyasının təsirlərindən müasir dünya maliyyə sisteminin fəaliyyətində yaranan problemlərin müəyyənləşdirilməsinə daha çox ehtiyac var. Maliyyənin mahiyyətinə və onların fəaliyyət xüsusiyyətlərinə dərindən nüfuz edilməsinin böyük əhəmiyyəti vardır. Bu cür kateqoriyadan bazar prinsiplərindən istifadə olunduğu təcrübədə daha çox istifadə variantlarının artırılması düzgün nəzəri mövqelərdən yanaşmağa imkan verir.

Maliyyə cəmiyyətin iqtisadi münasibətlərinin bir hissəsidir. Lakin təcrübədə maliyyənin abstrakt bir münasibətlər ilə deyil, real pul münasibətləri ilə əlaqəsi olur. Dəyərin maliyyə vasitəsi ilə bölgüsü və yenidən bölgüsü pul vəsaitlərinin gəlirlər, daxilolmalar və yığımlar formasında hərəkəti ilə müşayiət edilir ki, onların da məcmusu maliyyə resurslarını təşkil edir. Maliyyə resursları maliyyə münasibətlərinin maddi daşıyıcısıdır [1, s. 84].

Bazar dəyişikliklərinin baş verdiyi müasir iqtisadi şəraitdə maliyyənin rolunun artması maliyyə münasibətlərinin mənalı hissəsini daha da inkişaf etdirmək üçün maliyyə sisteminin tarixinin, maliyyə elminin inkişafının daha ətraflı şəkildə tədqiqini və araşdırılmasını müəyyənləşdirir.

Maliyyənin mahiyyətini bir kateqoriya kimi nəzərdən keçirərkən, hazırda onun təkamülünü təyin edən və eyni zamanda gələcəkdə inkişaf xüsusiyyətlərini formalaşdıran bir sıra prinsipial yeni müddəalar qoyan ən vacib müasir meyilləri nəzərə almaq lazımdır. Ümumiyyətlə, D.A.Bağırovun və M.X.Həsənlinin fikrincə, maliyyə dedikdə, “...geniş təkrar istehsalın fasiləsizliyinin təmin edilməsi, dövlətin vəzifə və funksiyalarının yerinə yetirilməsi məqsədilə mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsi ilə əlaqədar olan iqtisadi münasibətlər”i nəzərdə tutan tərifdir [3, s. 8]. Maliyyə iqtisadi bazisin elementidir və iqtisadi kateqoriya kimi çıxış edir, çünki, hər şeydən əvvəl, o, istehsal münasibətlərinin müəyyən tərəflərinin universal və mücərrəd formada ifadəsidir. “Bazis” dedikdə üstqurumun əsasını təşkil edən istehsal münasibətlərinin toplusu başa düşülür. Maliyyə iqtisadi münasibətləri ifadə edir və müvafiq olaraq iqtisadi bazisin tərkibinə daxildir [3, s. 7].

E.S.Hacıyev və M.R.Bədirov qeyd edirlər ki, “ ... maliyyə anlayışı yalnız pul münasibətlərini əhatə etmir. Pul münasibətləri maliyyə münasibətlərinə o zaman çevrilir ki, istehsal nəticəsində və onların reallaşdırılması zamanı şirkətlərin gələcəkdə istifadə edəcəkləri maliyyə resursları formalaşmış olsun. Mövcud şəraitdə hər bir cəmiyyətdə bir sıra pul münasibətləri fəaliyyət göstərir. Bunlara dövlətlə-müəssisələr, dövlətlə-əhali, ayrı-ayrı müəssisələr, müəssisələrlə-əhali arasında olan münasibətlər aiddir. Maliyyə münasibətlərini fərqləndirən bir sıra xüsusiyyətlər vardır” [5, s. 16].

Ölkəmizin iqtisadiyyatının bazar prinsiplərinə uyğun formalaşdığı şəraitdə maliyyənin mahiyyətinin nəzəri və metodoloji tədqiqatlarını aydınlaşdırmaq məqsədilə maliyyə münasibətlərinin inkişaf xüsusiyyətlərinin daha ətraflı şəkildə nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik. Bu baxımdan maliyyənin inkişafının iki istiqamətdə nəzərdən keçirilməsi diqqət çəkən məqamdır. Bu istiqamətlər tarixi (maliyyə elminin inkişafı) və iqtisadi (maliyyə sisteminin inkişafı) kateqoriya kimi qəbul edilməlidir. Maliyyə termininin yaranmasını əvvəlcədən müəyyənləşdirən və maliyyə elminin inkişafının təkamülünü təqdim edən şərtlər cədvəl 1-də ətraflı şəkildə əks olunub.

Maliyyə elminin yaranması tarixi istiqamətlərdə öyrənilərkən onun inkişafı dövlətçiliyin bərqərar olması ilə əlaqədardır. Dövlətçiliyin yaranması vergilərin tətbiq edilməsini və sonra vergi sisteminin formalaşmasını tələb etdiyi zaman kəmiyyət dəyişikliklərinin keyfiyyətə davamlı keçidinin vahid prosesi kimi başa düşməyə imkan verirdi. Belə bir şəraitdə ixtisaslaşdırılmış gəlirlərin tətbiqi dövlət büdcəsinin formalaşmasına səbəb oldu.

Maliyyə və maliyyə sisteminin müəyyənləşdirilməsinə dair baxışlar

Müasir iqtisadi mənbələrdə maliyyə və maliyyə sistemini müəyyənləşdirmək üçün vahid ortaq fikirlər yoxdur və bu terminlər fərqli məzmuna malikdirlər. Lakin bu anlayışların formalaşması elmi tədqiqat zamanı istifadə olunan maliyyə nəzəriyyəsindən asılıdır. Maliyyə elmi sahəsində fəaliyyət göstərən tədqiqatçıların müəyyən bir maliyyə konsepsiyasına bağlılığını təyin edən iki əsas maliyyə nəzəriyyəsini (klassik və neoklassik) fərqləndirmək adətdir.

Klassik maliyyə nəzəriyyəsi, ilk növbədə, dövlət təşkilatlarının sərəncamında olan büdcələrə (büdcədənkənar fondlara) vəsaitlərin səfərbər edilməsi və bölüşdürülməsi mexanizmini əsaslandıran bütün nəzəri fikirləri və təcrübi üsulları özündə birləşdirir. Keçmiş inzibati-amirlik iqtisadi sistemi dövründə ölkəmizdə klassik maliyyə nəzəriyyəsinin üstünlük təşkil etməsi iqtisadiyyatın quruluşunda dövlət mülkiyyətinin üstünlüyə malik olması, sahibkarlığın (özəl biznesin) rəsmi şəkildə tanınmaması və hüquqi şəxs statuslu biznes subyektlərinin olmamasına görə maliyyə bazarının alətləri hesabına maliyyə mənbələri toplaya bilməməsi ilə əsaslandırılırdı. Buna görə də həmin totalitar siyasi sistem şəraitində əsasən dövlət maliyyəsi nəzəriyyəsi inkişaf etmişdir. Yalnız siyasi ideologiya dəyişərək bazar iqtisadi sisteminə keçildikdən sonra neoklassik maliyyə nəzəriyyəsi əsasında özəl sferanın maliyyəsinin inkişafı üçün ilkin şərtlər yaradıldı.

Maliyyənin neoklassik nəzəriyyəsinin tədqiqat obyekti kapital bazarları və özəl sahibkarlığın maliyyəsi hesab olunur. Bunların arasında təmərküzləşərək səhmdar cəmiyyətləri şəklində yaradılan böyük korporasiyaların maliyyəsi fərqliliyi ilə seçilir. Böyük Britaniya və ABŞ tədqiqatçıları özəl sahibkarlığın və bu ölkələrin iqtisadiyyatının maliyyə sferasının fəal inkişafı ilə əlaqədar

Cədvəl 1

Maliyyə elminin yaranması və inkişafının təkamülü

Maliyyə elminin inkişaf dövrü və mərhələləri	Mərhələlərin məzmununa görə xüsusiyyətləri	
b.e.ə. VI-IV əsrlər Maliyyə elminin olmadığı dövr	Tarixçilərin fikrinə görə, Qara dənizin şimal bölgəsinin şəhərlərində pul dövriyyəsi artıq mövcud olub və həmin dövrdə “delfinlər” şəklində tökmə sikkələr buraxılıb. Məhkəmə və ticarət rüsumları şəklində dolayı vergilər mövcud idi	
XI əsr “Maliyyə”nin yaranma dövrü	İngilis dilində “maliyyə” termininin ortaya çıxması - pul cəzası, cərimə və imtiyaz haqqı mənasını bildirən “fine” (latın dilindən) sözündən yaranmışdır	
XII-XIII əsrlər Maliyyə münasibətlərinin inkişaf etmədiyi dövr	İtaliyada “financia” (latınca) termininin yaranması gəlir və əməliyyatda ödəniş mənasını bildirir. Bu dövr maliyyə münasibətlərinin inkişaf etməməsi ilə xarakterizə olunur, dövlət gəlirləri isə natural şəklində vergilər və əmək rüsumları hesabına formalaşırdı.	
XIII-XIV əsrlər Natural maliyyə dövrü	Foma Akvinskinin Əsərləri	Natural təsərrüfatın üstünlük təşkil etməsi və maliyyə idarəçiliyinin zəif inkişafı maliyyə elminin inkişafına mane olurdu. Bununla yanaşı maliyyə ilə bağlı bəzi təlimatlar artıq mövcud idi
XV əsr Xəzinədarlıq (domen) dövrü	Dövlət artıq dövlət xərclərini ödəyə bilmirdi, buna görə yeni maliyyə üsulları ortaya çıxdı (vergilər, rüsumlar, ödənişlər). Maliyyə nəzəriyyəsi inkişaf etməyə və dövlətin maliyyə siyasətinə təsir göstərməyə başladı	
XVI-XVII əsrlər Kollec-kollegial (gümüş və qızıl ehtiyatları) dövrü	J.Boden, Q.Qobbs, D.Lokk	Vergilər hesabına dövlət gəlirlərinin yaradılması zərurəti təklif olunurdu. Dövlətin dolayı vergilər tətbiq etmək hüququ sübut edilmişdir. Maliyyə idarəetməsini gəlir və xərclərə uyğunlaşdırmaq cəhdi edilmişdir. İlk dəfə olaraq dövlət maliyyəsi, dövlət büdcəsi və dövlət krediti anlayışları yarandı.
XVII-XVIII əsrlər Nəzəri yanaşmalar dövrü	F.Kene, A.Tyurqo, O.Mirambo, A.Smit, D.Rikardo, J.B.Sey	Maliyyə elmi ilə maliyyə siyasətini ayırmaq cəhdi. Maliyyə və milli iqtisadiyyatın əlaqəsi və qarşılıqlı asılılığının müəyyənləşdirilməsi. Vergilərin yeni nəzəriyyəsi hazırlanmışdır. Dövlət və yerli maliyyə anlayışları tətbiq olunur. Maliyyə iqtisadiyyatının təcrübi tədqiqatları aparılıb, lakin maliyyə kateqoriyasının nəzərdən keçirilməsinə sistemli bir yanaşma mövcud deyildir.
XIX əsr Sistemin təqdimat müddəti	F.Nitti, İ.M.Kulişera, V.A.Lebedev, İ.X.Ozerov, J.Sismondi, A.Vaqner, K.Q.Ray, V.Y.Vitte, O.İ.Veselovskiy, İ.İ.Yanjulididr	Maliyyə nəzəriyyəsinə həsr olunmuş bir çox əsər vardır, ilk dəfə maliyyə baxımından sistemli bir təqdimat verildiyi bir dərslik nəşr olundu. İlk dəfə geniş təcrübi material əsasında maliyyənin vəziyyətinin təhlili aparıldı. Maliyyə yeni fəaliyyət sahələri ilə müstəqil bir bilik sahəsi kimi başa düşülməyə başladı (maliyyə bazarları, maliyyə institutları).
XX əsr Maliyyə münasibətlərinin inkişaf etdiyi dövr	A.M.Aleksandrov, A.M.Birman, E.A.Voznesenskiy, İ.D.Zlobin, A.M.Rodionova, V.K.Sençaqov, N.Q.Sıçyev, B.M.Sabanti və s.	Sovet alimləri maliyyə elminin nəzəri əsaslarının tədqiqi və inkişaf etdirilməsinə öz əvəzsiz töhfələrini vermişlər. “Maliyyə” anlayışı təkcə dövlət təsərrüfatına deyil, həm də sahibkarlıq subyektlərinə münasibətdə istifadə olunmağa başladı. Maliyyə münasibətləri sahəsində yeni bir ev təsərrüfatlarının maliyyəsi istiqaməti yaranmışdır. Dövlətlərarası maliyyə münasibətlərinin inkişafında irəliləyişlər baş verdi.

Mənbə: cədvəl tədqiqatın nəticələrinə əsasən tərəfimizdən hazırlanmışdır [1; 5; 9, s. 19-20; 10, s. 68-86; 16]

maliyyənin neoklassik nəzəriyyəsinin inkişafına ən böyük töhfələrini vermişdir [6, 9, 11, 19]. Bununla yanaşı, həmçinin milli iqtisadiyyatımız üçün maliyyə elminin yeni prinsiplərinə əsaslanan xarici iqtisadi nəzəriyyə və modellərin istifadəsinin ölkəmizin gerçəkliyi şərtlərinə uyğunlaşdırılmasına ehtiyacın olduğu nəzərə alınmalıdır.

Araşdırmalarımızın nəticəsində aydın olur ki, iqtisadi kateqoriya kimi təqdim olunan "maliyyə" anlayışının məzmununa tədqiqatçılar münasibət bildirərkən maliyyə münasibətlərinin və bütövlükdə maliyyə elminin mahiyyətinə fərqli prizmadan yanaşırlar. Belə ki, maliyyə elmində maliyyə metodologiyasının konseptual məsələlərində fərqlənən bir sıra nəzəri istiqamət müəyyən edilmişdir. Bu əsasən onunla izah olunur ki, tədqiqatçıların müəyyən bir məktəbə mənsub olmaları, onların elmi biliklərinin və tədqiqat üsullarının mənşəyi (mahiyyəti) ilə bağlı baxışları mövcud ümumi elmi-metodoloji yanaşma və müddəaların təsiri altında formalaşmışdır. Fərqli tədqiqatçıların bu yanaşmaların bir-birinə zidd olmadığı, əksinə "maliyyə" kateqoriyasının çoxfunksiyalılığını əks etdirməsi fikri ilə razılaşmamaq olmaz.

Dövlət maliyyə siyasətinin işlənib hazırlanması və onun inkişafının nəzəri aspektləri

Maliyyə münasibətlərinin yaranmasının uzun tarixə malik olmasına və iqtisadçı alimlərin maliyyə və maliyyə münasibətlərinin mahiyyəti ilə bağlı çoxsaylı tədqiqat işlərini aparmasına baxmayaraq, müasir elmdə "maliyyə", "maliyyə sistemi", "maliyyə mexanizmi", "maliyyə resursları" terminlərinin şərhlərində vahid şəkildə mövqenin formalaşmamasına baxmayaraq hətta bir elmi məktəb çərçivəsində fikir ayrılıqları da mövcuddur. Bu göstərilənlərə əsasən müasir dünyada baş verən dəyişiklikləri nəzərə alaraq səmərəli dövlət maliyyə siyasətinin işlənib hazırlanması və inkişafı üçün zəruri olan maliyyə elminin nəzəri aspektlərinin daha da araşdırılmasına ehtiyac vardır.

Y.S.Dolqanova, N.Y.İsakova, N.A.İstomina və başqaları tədqiqatları zamanı qeyd edirlər ki, "maliyyə sahəsində nəzəriyyələrin formalaşması və inkişafının uzun dövrü müasir maliyyə sistemlərində pul vəsaitlərinin hərəkətinin məqsədyönlülüyünü səciyyələndirən geniş istiqamətlərin mövcudluğuna səbəb olmuşdur. Maliyyə elminin bu cür formalaşması və inkişafı təkamül baxımından qanunauyğundur. Dünya alimlərinin bu sahədəki geniş mövqelərinin ümumiləşdirilməsi, maliyyənin iqtisadiyyatın dövlət və özəl sektorlarında pul münasibətlərinin məcmusu kimi təqdim edildiyi qənaətinə gəlməyə imkan verir. Belə münasibətlərin istiqaməti tamamilə aydın şəkildə müəyyən edilmişdir ki, bu da, iqtisadiyyatın dövlət tənzimlənməsi şəraitində təkrar istehsal prosesinin davamlılığını təmin etməkdir" [18, s. 35].

Son illərdə yeni sosial-iqtisadi reallıqlara uyğun olaraq maliyyənin təbiətini və xüsusiyyətlərini nəzərdən keçirmək cəhdlərini özündə cəmləşdirən bir sıra maraqlı elmi əsərlər ərsəyə gəlib. Dövlət maliyyəsi sferasında yuxarıda göstərilən elmi araşdırmaların sahələri indiyədək aktuallığını qoruyub saxlamaqdadır. Maliyyənin mahiyyəti ilə bağlı əvvəllər nəzərdən keçirilmiş mövqelər ayrı-ayrı tədqiqatçılara "maliyyə" kateqoriyasının genişləndirilmiş tərifl ərini verməyə imkan yaratdı.

R.Levinenin fikrincə, maliyyə inkişafı stimullaşdırır, eyni zamanda iqtisadi imkanların bölgüsünü yaxşılaşdırır. O, hesab edir ki, tədqiqatçılar maliyyə inkişafı mərhələsində gəlir bölgüsü və yoxsulluğun azaldılması arasındakı əlaqələri təhlil etməlidirlər, o cümlədən maliyyə yeniliyinin maliyyə qeyri-sabitliyini necə yarada biləcəyini diqqətlə araşdırsalar da, maliyyə yeniliyinin uzunmüddətli iqtisadi böyüməni və gəlir bərabərsizliyini necə formalaşdırdığına dair daha çox aydınlığa ehtiyac vardır [20 , s. 58].

T.E.Bondar maliyyəyə aşağıdakı tərifi vermişdir: "müasir iqtisadiyyatın son dərəcə vacib və təcrübi olaraq əhəmiyyətli bir kateqoriyasıdır. Dövlətin maliyyə vəziyyəti onun təhlükəsizliyini tamamilə müəyyənləşdirir: iqtisadi, hərbi, qida, enerji, ekoloji, sosial və s. Müəssisələrin (təşkilatların) heç bir ciddi iqtisadi qərarı bunun üçün lazım olan maliyyə mənbələrinin miqdarını əvvəlcədən qiymətləndirmədən həyata keçirilə bilməz. Bu hallar alimlərin və təcrübəçilərin maliyyəyə davamlı, keçməyən marağını müəyyənləşdirir" [7, s. 71].

Araşdırmaları zamanı S.F.Fedulova vurğulayır ki, "maliyyə, iqtisadi subyektlərdə pul vəsaitlərinin, gəlirlərin və əmanətlərin formalaşması və istifadəsi ilə bağlı pul bölgüsü münasibətləri

sistemidir”. O, göstərir ki, maliyyə münasibətlərinin əsas qruplarına aşağıdakılar daxildir:

- biznes subyektləri arasında gəlirlərin bölgüsü ilə bağlı münasibətlər (birgə fondlar, səhmlərdə iştirak, cərimələr və s.);
- bir tərəfdən biznes subyektləri ilə əhali, digər tərəfdən dövlət arasında büdcə və büdcədənkənar fondların yaradılması və bu fondlardan vəsaitlərin ayrılması ilə bağlı münasibətlər;
- sığorta fondlarının formalaşması və istifadəsi ilə bağlı bir tərəfdən sığorta təşkilatları, digər tərəfdən isə biznes subyektləri ilə əhali arasında münasibətlər;
- biznes subyektləri ilə yuxarı təşkilatlar arasında yuxarı təşkilat tərəfindən yaradılan vəsaitlərin formalaşması və bölüşdürülməsi ilə bağlı münasibətlər;
- gəlirlərin bölüşdürülməsi, pul gəlirlərinin, əmanətlərin, vəsaitlərin fondlarının formalaşması və istifadəsi ilə bağlı müəssisələr, qurumlar, təşkilatlar arasındakı münasibətlər [16, s. 19-20].

N.N.Şestakovanın monoqrafiyasında maliyyə münasibətləri nəzəriyyəsinə dair müxtəlif nəzəri-metodoloji baxışlar ümumiləşdirilir və maliyyə dedikdə “dövlətin mərkəzləşdirilmiş pul fondlarının funksiyalarını yerinə yetirmək üçün formalaşması, bölgüsü və istifadəsi, habelə biznes subyektlərinin və ev təsərrüfatlarının genişləndirilmiş çoxalma şərtlərini təmin etmək üçün mərkəzləşdirilməmiş fondları ilə bağlı pul münasibətləri sistemi” başa düşülür [19, s. 15].

Maliyyə münasibətləri sistemində əsas anlayışların sistemli əlaqəsi

Maliyyə nəzəriyyəsi, xüsusən büdcə və vergi sisteminin inkişaf prinsipləri çərçivəsində sələflərin yaratdığı təcrübi-nəzəri maliyyənin genezisinə əsaslanmalıdır. Büdcə sisteminin səviyyələri arasında vergilərin bölüşdürülməsi prinsiplərini öyrənən N.N.Şestakova maliyyənin bölüşdürücü, tənzimləyici və nəzarət funksiyalarını fərqləndirmişdir. Maliyyənin bölüşdürücü funksiyası istehsal olunan sosial məhsulun dəyərinin bölüşdürülməsi, iqtisadi münasibətlər subyektlərində gəlir və əmanətlərin formalaşması və fondların yaradılması ilə əlaqələndirilir. Maliyyənin tənzimləyici funksiyası dövlətin iqtisadi inkişafa (biznes subyektlərinin davranışı, ayrı-ayrı ərazilərin və sahələrin inkişafı) maliyyə qolları vasitəsilə təsiri ilə özünü göstərir. Nəzarət funksiyası artıq ÜDM-in müvafiq fondlara bölüşdürülməsi zamanı özünü göstərir və bu fondların formalaşmasının düzgünlüyünün və vəsaitlərin təyinatı üzrə xərclənməsinin yoxlanılmasıdır [19, s. 16-17].

Maliyyənin, maliyyə münasibətlərinin və büdcə sisteminin mahiyyəti ilə əlaqədar bir sıra tədqiqatçıların tənqidi yanaşmaları bizə cəmiyyətin iqtisadi inkişafında onlardan istifadə etmək üçün etibarlı metodoloji platforma verir.

Maliyyənin məzmununun öyrənilməsi də vacib məsələdir, çünki bu, maliyyə mexanizminin formalaşması üçün ilkin material və dövlətin maliyyə siyasətinin həyata keçirilməsi mexanizmi hesab olunur. İqtisadi funksiyalar kateqoriyası kimi maliyyəyə xas xüsusiyyətləri həyata keçirmək üçün bir vasitə olan maliyyə mexanizmidir.

Maliyyə sisteminin ümumiyyətlə tanınmış elementlərini nəzərə alaraq qeyd etmək lazımdır ki, aqrobiznes sisteminin spesifikliyi bu sistemdəki dövlətin maliyyə siyasətinə də təsir göstərir. Bütün bunlar aqrobiznes sisteminin maliyyə mexanizmi və maliyyə tənzimlənməsi yolu ilə həyata keçirilən müəyyən tədbirlərdə öz əksini tapır.

Maliyyə və maliyyə sistemi iqtisadi münasibətlər sistemində müəyyən bir yer tutur, lakin dövlətdə və ayrı-ayrı təşkilatlar səviyyəsində maliyyə axınlarının səmərəli idarə edilməsi olmadan biznes subyektlərinin nağd pulla təmin edilməsində maliyyə funksiyalarını yerinə yetirmək mümkün deyil. Maliyyə idarəetmə qurumları (müxtəlif səviyyələrdə hakimiyyət orqanları) maliyyə siyasəti və maliyyə mexanizmi vasitəsilə idarə olunmalıdır.

Akademik Z.Ə.Səmədzadənin ideya müəllifi və baş redaktorluğu ilə nəşr olunmuş “Böyük İqtisadi Ensiklopediya”da maliyyə siyasəti aşağıdakı kimi müəyyənləşdirilmişdir: “dövlətin iqtisadi siyasətinin tərkib hissəsi, hökumətin dövlətin maliyyə resurslarının səmərəli tətbiqinə yönəlmiş tədbirlər sistemidir. Bu sistem gəlirlər və xərclərin, vergilərin və vergitutmanın tənzimlənməsində, pul tədavülünün idarə edilməsində, milli valyutanın məzənnəsinə təsirdə dövlət büdcəsinin rolunun formalaşması və gerçəkləşməsi ilə əlaqədardır” [4, s. 457].

İqtisadi mənbələrdə dövlət maliyyə siyasətinin mahiyyəti və məzmunu çoxşaxəlidir. Beləliklə,

O.A.Qaloçkinanın və K.A.Kojuxinanın fikrincə maliyyə siyasəti "maliyyə mənbələrinin səfərbər edilməsinə, onların rasional paylanmasına və dövlətin öz funksiyalarını həyata keçirməsi üçün səmərəli istifadəsinə yönəlmiş dövlətin xüsusi fəaliyyət sahəsidir. Maliyyə siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir. Milli iqtisadiyyatın inkişafının əsas istiqamətlərini müəyyənləşdirir, maliyyə mənbələrinin ümumi həcmini, mənbələrini və istifadə istiqamətlərini müəyyənləşdirir, sosial-iqtisadi proseslərin maliyyə üsulları ilə tənzimlənməsi və stimullaşdırılması mexanizmini inkişaf etdirir" [8, s. 20].

V.D.Li, A.K.Mustafina və L.A.Bimendiyeva hesab edirlər ki, maliyyə siyasəti - "cəmiyyətin sosial-iqtisadi inkişafı problemlərini həll etmək üçün maliyyədən istifadə etmək üçün dövlətin məqsədyönlü fəaliyyətidir və bu üst quruluş anlayışıdır. Maliyyə siyasətinin hazırlanması prosesində ölkə qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi üçün maddi şərait təmin edilir. Buna görə maliyyə siyasəti iqtisadiyyata və sosial sahəyə təsir göstərən aktiv bir vasitədir" [12, s. 38].

Ümumiləşdirilmiş şəkildə "maliyyə", "maliyyə siyasəti", "maliyyə mexanizmi", "maliyyə tənzimlənməsi" anlayışlarının sistemli əlaqəsini cədvəl 2-də göstərmişik.

Cədvəl 2

Maliyyə münasibətləri sistemində əsas anlayışların sistemli əlaqəsi

	Məzmununa görə xüsusiyyətləri	**Maliyyə idarəetmə elementlərinin qarşılıqlı əlaqəsi**
Maliyyə	Dövlətin funksiyaları və vəzifələrini yerinə yetirmək, habelə istehsalın artırılması şərtlərini təmin etmək üçün pul vəsaitlərinin (fondlarının) formalaşması, paylanması və istifadəsi ilə əlaqəli iqtisadi münasibətlər.	- iqtisadiyyatın və onun subyektlərinin maliyyə tarazlığının təmin edilməsi: pul və maliyyə resursları ilə təmin edilməsi
		- milli gəlirin paylanması və yenidən bölgüsü
		- dövlət büdcəsindən daxil olan vəsaitlərin bölgüsü prosesinə nəzarət
		- biznes subyektlərinə dövlət dəstəyi vasitəsilə təkrar istehsal prosesinə təsir
		- vətəndaşların sabit iqtisadi və sosial şəraitlə təmin olunması
Maliyyə siyasəti	Dövlətin iqtisadi siyasətinin tərkib hissəsi, dövlət funksiyalarını yerinə yetirmək üçün maliyyə münasibətlərindən istifadə tədbirlərinin məcmusudur	- maliyyə siyasətinin ümumi konsepsiyasının hazırlanması
		- adekvat maliyyə mexanizminin yaradılması
		- dövlətin və iqtisadiyyatın digər subyektlərinin maliyyə fəaliyyətinin idarə edilməsi
		- milli iqtisadiyyatın inkişafının əsas istiqamətlərinin konkretləşdirilməsi
Maliyyə mexanizmi	Maliyyə planlaşdırması və proqnozlaşdırılması	- maliyyə planları və proqnozlarının növ və formalarının işlənib hazırlanması - maliyyə planının təsdiqlənməsi üçün təşkilati tədbirlərin həyata keçirilməsi - maliyyə planı tapşırıqlarının dəqiqləşdirilməsi
	Maliyyə nəzarəti	- qanunvericiliyin ciddi icrasının yoxlanılması
	Maliyyə rıçaqları və alətləri	- Maliyyə rıçaqları: mənfəət, gəlir, amortizasiya ayırmaları, xüsusi təyinatlı iqtisadi fondlar, pay haqları və s. - Maliyyə alətləri: ödəniş, kredit, depozit, investisiya alətləri, sığorta alətləri
	Maliyyə tənzimləmə təminatı	- təlimatlar, standartlar, normalar, tarif dərəcələri, təlimatlar və izahatlar və s.
	İnformasiya dəstəyi	- biznes subyektlərinin maliyyə sabitliyi və ödəmə qabiliyyəti haqqında məlumat - verilənlər bazasının formalaşdırılması
Maliyyə tənzimlənməsi	Maliyyə resurslarının bəzi bazar seqmentlərində cəmləşdirilməsi, digərlərində isə maliyyə resurslarının artımını məhdudlaşdırmaqla iqtisadi və sosial proseslərə təsir	- hüquqi mexanizmin formalaşdırılması və tənzimlənməsi
		- idarəetmə mexanizminin formalaşması və tənzimlənməsi
		- maliyyə-iqtisadi mexanizmin formalaşdırılması və tənzimlənməsi

Mənbə: cədvəl tədqiqatın nəticələrinə əsasən tərəfimizdən hazırlanmışdır [9, s. 27; 17]

Ölkənin iqtisadiyyatının digər sahələri ilə müqayisədə aqrobiznes sistemində sahibkarlıq fəaliyyəti özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Aqrobiznes sistemində sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri maliyyə münasibətlərinin formalaşaraq inkişaf etdiyi indiki iqtisadi şəraitdə özünü göstərir.

Nəticə

Aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşmasına təsir edən amillərin və onun inkişaf xüsusiyyətlərinin nəzəri baxımdan araşdırılması bir sıra nəticələrin və mülahizələrin əldə olunmasına imkan yaradır. Müzakirəyə səbəb olan elmi mülahizələr aqrobiznes sistemində maliyyə münasibətlərinin formalaşması sisteminin əsasını təşkil edən və bir sıra prinsipləri müəyyən edən aparıcı tədqiqatçıların araşdırmalarının nəticələrində yer alan müəyyən fikirləri dəstəkləməyə imkan verir:

- dövlətin maliyyə yardımının və dəstəyinin müəyyən bir səviyyəsi biznes subyektlərinin özünü maliyyələşdirmələrinə kömək etməlidir, o cümlədən onlara məqsədli proqramla yanaşma həyata keçirilməlidir;
- maliyyə dəstəyinin reallaşdırılmasına diferensial yanaşma biznesin səmərəliliyində və məhsulların rəqabətqabiliyyətliliyindəki fərqləri nəzərə almalıdır;
- dövlətin maliyyə dəstəyinin motivasiya yönümü sahibkarların səmərəli biznesinə yönəldilməlidir;
- proteksionizmin, əlçatanlığın və ünvanlılığın müəyyən səviyyəsi müəyyənləşdirilməlidir;
- bazarda məhsulun rəqabəti üçün bərabər şərait təmin edilməlidir;
- dövlətin maliyyə yardımından və dəstəyindən səmərəli istifadə edilməklə həmin tədbirlərin həyata keçirilməsinin ardıcıllığı və zəmanəti təmin olunmalıdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ataşov, B.X. Maliyyə bazarları / B.X.Ataşov. - Bakı: Kooperasiya, - 2016. - 456 s.
2. Azərbaycanın kənd təsərrüfatı // ARDSK-nın statistik məcmuəsi. - Bakı: Çaşıoğlu Eİ-MMC, - 2023. - 707 s.
3. Bağırov, D.A. Maliyyə / D.A.Bağırov, M.X.Həsənli. - Bakı: İqtisad Universiteti, - 2011.-384 s.
4. Böyük İqtisadi Ensiklopediya: [7 cilddə] / Z.Ə.Səmədzadə. - Bakı: Şərq-Qərb, - c. III. – 2012-2015. - 608 s.
5. Hacıyev, E.S. Maliyyə və biznes menecmenti / E.S.Hacıyev, M.R.Bədirov – Bakı: Tuna, - 2021. - 368 s.
6. Kazımov, R.N. Təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının təhlili metodikasının təkmilləşdirilməsi / R.N.Kazımov, F.Q.Əmrahov // Kooperasiya, - Bakı: - 2023. №3(70), - s. 51-57
7. Бондарь, Т.Е. О дискуссионности фундаментальных основ понимания финансов // Экономические и юридические науки. Финансы и кредит, - 2014. №13, - с. 71-77.
8. Галочкина, О.А. Финансы / О.А.Галочкина, К.А.Кожухина - СПб.: ЕврАзЭС, -2019. -272 с.
9. Жума кызы Раиза. Финансовый механизм стратегии развития сельского хозяйства Кыргызской Республики: методология, концепция, использования: / Дисс. ... докт. экон. наук. / Бишкек, 2021. - 275 с.
10. Ицкович, Б.Ф. Генезис теоритических и практических финансов // Финансы и кредит, - 2009. №18, - с. 68-87.
11. Кельчевская, Н.Р. Развитие ресурсного потенциала регионального агропромышленного комплекса: монография / Н.Р.Кельчевская, И.С.Пелымская, Е.В.Андреева - Москва: Креативная экономика, - 2021. - 128 с.
12. Ли, В.Д. Финансы / В.Д.Ли, А.К.Мустафина, Л.А.Бимендиева - Алматы: Қазақ университеті, - 2019. - 336 с.
13. Ловкис, Л.К. Экономика организаций (предприятий) агропромышленного комплекса / Л.К.Ловкис, О.А.Карабань, Т.Г.Горустович - Минск: БГАТУ, - 2021. - 316 с.

14. Петрова, Л.М. Современные реалии и перспективность функционирования малого и среднего бизнеса в агропромышленном комплексе // Продовольственная политика и безопасность, - 2022, - Т. 9. №1, - с. 93-102.
15. Тоболич, З.А. Экономика предприятий агропромышленного комплекса / З.А.Тоболич - Горки: БГСХА, - 2017. - 221 с.
16. Федулова, С.Ф. Теория и практика финансов / С.Ф.Федулова - Ижевск: ФГБОУ ВПО "УдГУ", - 2018. - 580 с.
17. Финансы / С.А.Белозеров, Г.М.Бродский, С.Г.Горбушина [и др.]; отв. ред. В.В.Ковалев. -3-е изд., перераб. и доп.- М.: Проспект, 2019. - 933 с.
18. Финансы / Ю.С.Долганова, Н.Ю.Исакова, Н.А.Истомина [и др.] - Екатеринбург: Изд-во Урал. ун-та, - 2019. - 336 с.
19. Шестакова, Н.Н. Финансы / Н.Н.Шестакова - Красноярск: Краснояр. гос. аграр. ун-т., - 2019. - 366 с.
20. Levine, R. Finance, Growth, and Inequality // IMF Working Paper, - 2021, - 80 p.

Айгуль Айдын Салимова
Докторант Центра Аграрных Исследований
vipaygul76089@gmail.com

Факторы, влияющие на формирование финансовых отношений в системе агробизнеса и эволюция его развития

Резюме

Цель исследования - выявление факторов, влияющих на формирование финансовых отношений в системе агробизнеса в современных экономических условиях, и оценка особенностей его развития.

Методология исследования - в исследовательской работе использованы методы логического обобщения, системного подхода, анализа и синтеза.

Прикладное значение исследования - фундаментальные исследования в исследовании имеют возможность создания условий для выявления факторов, влияющих на формирование финансовых отношений в системе агробизнеса и особенностей его развития.

Результаты исследования - изучение с теоретической точки зрения факторов, влияющих на формирование финансовых отношений в системе агробизнеса и особенностей его развития, позволяет сделать ряд выводов и соображений.

Оригинальность и научная новизна исследования - научные соображения, вызвавшие дискуссию, позволяют поддержать определенные идеи, содержащиеся в результатах исследований ведущих исследователей, которые легли в основу системы формирования финансовых отношений в системе агробизнеса и определили ряд принципов.

Ключевые слова: система агробизнеса, экономические, финансовые отношения, субъект, фактор, развитие, ресурс.

Aygul Aydin Salimova
Azerbaijan Ministry of Agriculture
PhD student of the Agricultural Economics Research Center
vipaygul76089@gmail.com

Factors affecting the formation of financial relations in the agribusiness system and the evolution of its development

Summary

The purpose of the study - the identification of factors affecting the formation of financial relations in the agribusiness system in modern economic conditions and the assessment of the features of its development.

Research methodology - logical generalization, systematic approach, analysis and synthesis methods were used in the research work.

The importance of applying research - substantive research in the study has the opportunity to create conditions for determining the factors affecting the formation of financial relations in the agribusiness system and the features of its development.

The results of the study - a theoretical study of the factors affecting the formation of financial relations in the agribusiness system and the features of its development makes it possible to obtain a number of conclusions and judgments.

The originality and scientific novelty of the research - scientific considerations that cause discussion allow us to support certain ideas contained in the results of research by leading researchers, which form the basis of the system of formation of financial relations in the agribusiness system and determine a number of principles.

Keywords: agribusiness system, economic, financial relations, subject, factor, development, resource